*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  5 dekabr 2015-ci il  № 93 (2009)  Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Bu gün həm regionda, həm Avropada gedən proseslərdə Türkiyə və Azərbaycan artıq ciddi amil kimi mövcuddur



***Xəbər verildiyi kimi, dekabrın 3-də Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ölkəmizə rəsmi səfərə gəlib. Təntənəli qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Əhməd Davudoğlu ilə təkbətək və geniş tərkibdə görüşü olub.***

***Prezident İlham Əliyev və Baş nazir Əhməd Davudoğlu mətbuata birgə bəyanatlarla çıxış ediblər.***

Prezident İlham Əliyev öz çıxışında deyib:

- Bu yaxınlarda Antalya şəhərində keçirilmiş G20 Zirvə görüşü münasibətilə Türkiyəni təbrik etmək istəyirəm. Minnətdarlığımı bildirmək istəyirəm ki, Türkiyə bu Zirvə görüşünə Azərbaycanı dəvət etdi. Bir ölkəni dəvət edə bilərdi və bu ölkə Azərbaycan oldu. Buna görə də Sizə minnətdaram. Bu, bizim üçün çox önəmlidir. İlk növbədə ona görə ki, həm Türkiyə, həm Azərbaycan, həm də dünya ictimaiyyəti gördü ki, biz bir-birimizə nə qədər yaxınıq. Məncə, dünyada bir-birinə bu qədər yaxın olan ikinci ölkələr mövcud deyil. Bizi birləşdirən tariximizdir, ortaq mədəniyyətimizdir, etnik köklərdir, dilimizdir. Eyni zamanda, bu gün Türkiyə və Azərbaycan iki müstəqil dövlət kimi bir-biri ilə çox sıx əməkdaşlıq edir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdur. O gündən bu günədək bizim əlaqələrimiz çox sürətlə və hərtərəfli inkişaf edir.

Biz bütün dövrlərdə və bütün məsələlərdə daim bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, dəyişməz siyasətdir. Bu siyasət həm ədalətə, həm də bizim tarixi keçmişimizə söykənir. Biz çox istəyirik ki, gələcək nəsillər də bu əlaqələri yüksək səviyyədə saxlasınlar. Bunun üçün bütün imkanlar var. Çünki bizim siyasi maraqlarımız üst-üstə düşür. Biz istəyirik ki, bölgədə sülh, əmin-amanlıq olsun, qarşıdurmalar olmasın, bütün ölkələr, bütün xalqlar rahat yaşasınlar, öz həyatını qursunlar, heç kim heç kimin daxili işinə qarışmasın.

Türkiyə-Azərbaycan birliyi və siyasəti bölgədə sabitləşdirici rol oynayır. Çünki bölgədə sabitlik, əfsuslar olsun ki, pozulub, yeni təhdidlər, risklər meydana gəlir. Biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq. Əlbəttə, Türkiyə nə qədər daha güclü olsa, Azərbaycanın gücü də o qədər artacaqdır.

Biz bütün beynəlxalq təşkilatlarda da bir-birimizi daim dəstəkləyirik. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyini dəstəklədiklərinə görə Türkiyə xalqına, dövlətinə minnətdarlığımı bildirmək istəyirəm. Bildiyiniz kimi, uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizi erməni işğalı altındadır. Şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, tarixi abidələrimiz ermənilər tərəfindən dağıdılıbdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası münaqişənin həlli ilə bağlı dörd qətnamə qəbul etmişdir. Qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Ancaq Ermənistan buna məhəl qoymur və bu qətnamələr 20 ildən artıqdır ki, kağız üzərində qalır. Bu münaqişə və bütün başqa münaqişələr beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa həll yolu yoxdur.

Dövlətimizin başçısı həmçinin, bəyanatında qeyd edib ki, bütün digər sahələrdə, o cümlədən humanitar sahədə də sıx əməkdaşlıq aparılır. Hərbi sahədə çox gözəl əməkdaşlıq aparılır. Azərbaycan Türkiyədən ordumuza lazım olan silahları alır. Eyni zamanda, biz artıq bir neçə dəfədir ki, birgə hərbi təlimlər də keçirdik, həm Türkiyədə, həm Azərbaycanda. Bu, bir daha bizim birliyimizi nümayiş etdirir, gücümüzü artırır. Bu gün həm regionda, həm Avropada gedən proseslərdə Türkiyə və Azərbaycan artıq ciddi amil kimi mövcuddur.

Son illər ərzində Türkiyənin inkişafı, güclənməsi, dünya miqyasında artan rolu bizi bir dost, qardaş kimi çox sevindirir və bir daha demək istəyirəm ki, bizi də gücləndirir. Biz gücümüzə güc qatırıq, biz dostuq, qardaşıq. Bu, əsas məsələdir və bütün məsələlərdə bundan sonra da bir-birimizi dəstəkləyəcəyik, bir-birimizin yanında olacağıq.

* * *

Sonra Baş nazir Əhməd Davudoğlu bəyanatla çıxış edib.

- Mən də qonaqpərvərliyinizə görə bir daha təşəkkür etməyi özümə borc bilirəm. Türkiyə ilə Azərbaycan, - mən nə vaxt "Azərbaycan" deyirəmsə, həmişə "Can Azərbaycan" deyirəm, - bizim canımızdır, canımızla iç-içədir. Çox özəl əlaqələrə sahibik. Bunun bir göstəricisi də Türkiyədə və Azərbaycanda kim hökumət qurursa, vəzifəyə gəlirsə, ilk səfərini qarşılıqlı olaraq Türkiyəyə və Azərbaycana edir, - deyə baş nazir vurğulayıb.

"Böyük liderimiz Heydər Əliyev "Bir millət, iki dövlət" demişdi. Vətən şairimiz Bəxtiyar Vahabzadə "Türkiyə və Azərbaycan, bir ananın iki oğlu" demişdi. Biz bir-birimizə bu şəkildə bağlanmışıq. Bu bağlılıq nəsillərdən-nəsillərə ötürüləcək. Biz də Bakının ruzigarı-küləyi üçün darıxmışdıq. Oradan sevgi almağa gəldik.

Ortaq məsələlərimizi tam əməkdaşlıq şəraitində müzakirə etdik. Türkiyə və Azərbaycan həm Qafqaz regionunda, həm Avrasiya bölgəsində sabit inkişaf edən ölkələrdir. Çox dərin iqtisadi böhranların yaşandığı bir dövrdə - 2005-ci ildən 2015-ci ilədək Azərbaycan böyük inkişaf nümayiş etdirib, milli gəliri təxminən 5 dəfə artıb. Bu uğurların qazanılmasında cənab Prezidentin və onun hörmətli komandasının yaxşı işləməsi və Azərbaycan xalqının vətənpərvərliyi böyük əhəmiyyətə malikdir.

Təbii ki, Türkiyə hər zaman bu proseslərdə Azərbaycanın yanında olub və olacaq. Hansı mövzuda olursa-olsun, əgər Azərbaycanı maraqlandıran bir məsələ varsa, Türkiyənin mövqeyi bəllidir. Bütün sahələrdəki kimi, siyasi sahədə əlaqələrimiz hər zaman ən yüksək səviyyədə olub. G20 Sammitində hörmətli Prezidenti Türkiyədə, Antalyada görmək bizə böyük şərəf verdi. Türkiyə bayrağının dalğalandığı hər yerdə Azərbaycan bayrağı vardır. Azərbaycan bayrağının dalğalandığı hər yerdə Türkiyə bayrağı vardır.

Biz Bakını Azərbaycan ilə birlikdə Asiyanın yüksələn bir ulduzu olaraq görürük. Hər gəlişimdə Bakıda gördüyüm yüksəlişdən və inkişafdan böyük məmnunluq duyuram. "Soyuq müharibə"dən sonra əgər şəhərlərə baxsaq, ölkələrin taleyini də görə bilirik. Ən parlaq, ən müasir və ən çox inkişaf etmiş şəhərlərin başında Bakı dayanır. Bu mənada Azərbaycanın inkişafı bizim inkişafımızdır. Türkiyənin inkişafı Azərbaycanın inkişafıdır.

Cənab Prezident İlham Əliyevin müdafiə sənayesi sahəsinə dair fikirləri ilə tam həmrəyəm. Müdafiə sənayesi sahəsində də ortaq fəaliyyətimiz davam edəcək. Azərbaycanın özünün müdafiə sənayesini inkişaf etdirməsi və Türkiyə ilə birlikdə layihələr həyata keçirməsi bizim ən çox önəm verdiyimiz məsələlərdən biridir.

Qafqazda və ətraf regionlarda sülhün bərqərar olması Türkiyə-Azərbaycan əlaqələrindən böyük dərəcədə asılıdır. Bu baxımdan Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran, Türkiyə-Azərbaycan-Türkmənistan üçtərəfli mexanizmlərinə böyük önəm veririk. Türkiyə və Azərbaycanın birlikdə olduğu və digər ölkələrin iştirak etdiyi mexanizmlərin sülhə böyük töhfə verəcəyinə inamımız qətidir. Türk Şurası və digər regional təşkilatlarda birlikdə çalışmaqdan da böyük məmnunluq duyuruq.

Bu gün, həmçinin başda Dağlıq Qarabağ problemi olmaqla regional məsələləri də müzakirə etdik. Türkiyə olaraq bizim mövqeyimiz açıq və konkretdir: Azərbaycanın işğal altındakı torpaqlarının hamısı - bir kvadratsantimetri belə qalmamaqla qaytarılana qədər Türkiyə Azərbaycana verdiyi dəstəyi davam etdirəcək. Dünyada bir çox problemlərin həllində əsas prinsip ərazi bütövlüyünə qarşılıqlı hörmətdir. Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğu müddətdə Qafqazda sülhün və sabitliyin təmin olunmasında nə qədər çətinliklərin yaşandığı məlumdur.

Mən burada Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi, ədalətli və davamlı sülhün təmin olunması istiqamətində atılacaq hər addıma dəstək verəcəyimizi bir daha bəyan etmək istəyirəm. Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması üçün bütün Qafqazı əhatə edəcək sülh və rifah layihələrinə hər zaman töhfə verəcəyik.

Türkiyənin heç bir şəkildə səbəb olmadığı böhranla əlaqədar Rusiyanın bizə qarşı iqtisadi sanksiyaların tətbiqi ilə bağlı qərar qəbul etməsini də böyük bir ziddiyyət olaraq görürük. Özlərinə qarşı iqtisadi sanksiyalar tətbiq ediləndə bundan məmnun olmayanlar başqalarına da iqtisadi sanksiyalar tətbiq etməməlidirlər. Həmçinin iqtisadi sanksiyalar hər iki tərəfə də zərər verir. Heç bir iqtisadi sanksiya birtərəfli işləyə bilməz.

Qarşılıqlı ittihamlar əvəzinə, müzakirələr aparmaq üçün görüşək. Sonra əgər hadisənin necə baş verməsi ilə bağlı məlumat almaq istəsələr, - düzdür, bunları əvvəlcə açıqlamışıq, - bir daha açıqlayarıq. Dünya da buna şahiddir. Dünyada artıq heç nə gizli qalmır. Hava sərhədimizin pozulmasının necə baş verdiyi, eyni zamanda, NATO qeydlərində, bölgədəki hərbi bazalarda, hər yerdə bəllidir. Bunları danışıb müzakirə edərik. Gərginliyi azaltmaq, ittihamedici açıqlamalardan çəkinmək və iki qonşu ölkə olaraq bir masa ətrafında əyləşərək problemləri həll etmək bizim seçdiyimiz yol və metoddur.

Mən yüksək qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə bir daha təşəkkür etmək istəyirəm. Bütün azərbaycanlı qardaşlarımıza, dostlarımıza, Can Azərbaycana 78 milyon qardaşından salam gətirdik. Buradan da Bakının təkcə küləyini yox, salamını da aparacağıq. Bilsinlər ki, hər şey yox olsa, hər şey tar-mar olsa da, qiyamətə qədər yıxılmayacaq, tar-mar olmayacaq yeganə amil Türkiyə ilə Can Azərbaycan arasındakı dostluq, qardaşlıqdır.

Bu baxımdan, cənab Prezidentim, qarşıdakı 4 ildə Türkiyə Respublikasının iqtidarda olacaq Baş naziri kimi Azərbaycan harada olsa, biz də orada olacağıq. Azərbaycanın mənafeyi haradadırsa, Türkiyənin də mənafeyi orada olacaq. Azərbaycan bayrağı haradadırsa, Türkiyənin də bayrağı onun yanında olacaq. Bir daha təşəkkür edirəm".

**AZƏRTAC-ın materialları əsasında**

## Prezident İlham Əliyev Gürcüstanın Müdafiə nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşelini qəbul edib.***

Dövlətimizin başçısı bu yaxınlarda Gürcüstana rəsmi səfərini və keçirdiyi görüşlər zamanı ikitərəfli əlaqələrimizi əhatə edən müxtəlif məsələlər ətrafında aparılan səmərəli müzakirələri məmnunluqla xatırladı. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və energetika sahələrində uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşelinin Azərbaycana səfərinin iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığa dair məsələlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd etdi.

Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşeli də Azərbaycana səfərinin ölkələrimizin hərbi strukturları arasında əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Tinatin Xidaşeli ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrə xüsusi önəm verdiyini vurğuladı.

**AZƏRTAC**

## Azərbaycan-Gürcüstan əməkdaşlığı müzakirə olunub

***Dekabrın 2-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşelinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, regionda ümumi vəziyyətin təhlili və əməkdaşlığın müzakirəsi baxımından belə görüşlərin əhəmiyyətini vurğulayan Baş nazir Artur Rasizadə Azərbaycan iqtisadiyyatı barədə qonaqlara məlumat verib, həyata keçirilən enerji, nəqliyyat və digər irimiqyaslı regional layihələrin əhəmiyyəti barədə danışıb. Baş nazir qeyd edib ki, postsovet məkanında ən dinamik inkişaf edən respublikalardan biri olan Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı faydalı əməkdaşlığın bütün istiqamətlər üzrə, o cümlədən müdafiə nazirlikləri arasında da davam etdirilməsi günün tələbidir. Odur ki, hər iki ölkənin müdafiə və müdafiə sənayesi, hərbi təhsil və təcrübə mübadiləsi sahələrində faydalı əməkdaşlıq imkanlarından səmərəli istifadə vacibdir.

Azərbaycan hökumətinin qonşu gürcü xalqına və dövlətinə hər zaman dəstək verdiyini minnətdarlıqla xatırladan Gürcüstanın Müdafiə naziri Tinatin Xidaşeli Gürcüstan ilə Azərbaycan arasında tarixi dostluq və strateji əməkdaşlığın mövcudluğunu nəzərə almaqla əlaqələrimizin yeni şəraitdə daha da genişləndirilməsinin zəruriliyi fikri ilə razılaşdığını bildirib.

Söhbət zamanı regionda mövcud problemlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan tərəflər bölgədə sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olması, sürətli iqtisadi tərəqqinin təmin edilməsi naminə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, ərazi bütövlüyünün toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyini nəzərə çatdırıblar.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## Azərbaycanın Xarici İşlər naziri Belqradda Minsk Qrupunun həmsədrləri ilə görüşüb

***Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Belqradda keçirilən nazirlər toplantısı çərçivəsində dekabrın 2-də Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), İqor Popov (Rusiya), Pyer Andryö (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin cari statusu, qarşıdan gələn dövr ərzində qrupun fəaliyyət proqramı, Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün təşkil edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinə uyğun olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində tezliklə həllinə nail olmaq üçün Minsk Qrupunun həmsədrlərinin səylərinin artırılmasının vacibliyini vurğulayıb. Nazir əlavə edib ki, münaqişənin həlli üçün ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması təmin olunmalıdır.

**AZƏRTAC**

# Azərbaycanın Müdafiə naziri gürcüstanlı həmkarı ilə görüşüb







***Dekabrın 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli ilə görüşüb.***

Gürcüstanın nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib. Qonaqlar, həmçinin, Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını da ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov ölkələrimizin hərbi əməkdaşlığının ikitərəfli və NATO vasitəsilə həyata keçirilən proqramlar və treninqlər çərçivəsində, eləcə də Azərbaycan-Türkiyə-Gürcüstan hərbi qurumları formatında aparıldığını xüsusi qeyd edib.

Müdafiə naziri dövlətlərimiz arasında strateji tərəfdaşlığın daim inkişaf etdiyini, onun dostluq münasibətləri üzərində qurulduğunu və dərin tarixi köklərə malik olduğunu xatırladaraq Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, dövlət səviyyəsində daim separatizmi dəstəklədiyini və cəbhəboyu zonada gərginliyi artırmaq cəhdlərini diqqətə çatdırıb.

Sonra Azərbaycan ilə Gürcüstan Müdafiə nazirlikləri arasında əlaqələrin müəyyən edilmiş istiqamətlər üzrə genişləndirilməsi, hərbi, hərbi təhsil sahələrində əməkdaşlıq imkanları, Silahlı Qüvvələrin müxtəlif bölmələrinin iştirakı ilə birgə hərbi təlimlərin keçirilməsinin perspektivləri, qarşılıqlı işçi görüşlərin təşkili, o cümlədən maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Zabit olmağı özünə məqsəd seçən hər kəs xalqa, dövlətə və mənəvi dəyərlərə sədaqətli olmalıdır"

## Müdafiə naziri C.Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti ilə görüşüb



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti ilə görüşüb. Məktəbin müəllim-zabit və kursant heyətinin, həmçinin, xüsusi təyinatlı təhsil müəssisələri üzrə qurumların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.***



Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edib. O, məzunu olduğu Hərbi Liseyin şəxsi heyəti ilə görüşündən məmnun olduğunu bildirərək ölkəmizdə ordu quruculuğu prosesində təhsil ocağının xüsusi rolunu qeyd edib. Nazirin sözlərinə görə, hələ keçmiş Sovet quruluşu dövründə xalqımızın ümummilli lideri Heydər Əliyev bu vacib təhsil müəssisəsini yaratmaqla böyük uzaqgörənlik nümayiş etdirib. "Dahi rəhbərimiz hələ neçə illər əvvəl Azərbaycanın müstəqil dövlət olacağını düşünərək belə qətiyyətli islahatlara imza atmışdı. Mən deyərdim ki, müasir Silahlı Qüvvələrimizin formalaşmasında Hərbi Liseyin çox mühüm əhəmiyyəti olub. Məktəbin yetirmələri bu gün də ordumuzun sıralarında məsul vəzifələrdə xidmət edərək ölkəmizin hərbi qüdrətinin güclənməsində bacarıq və səylərini əsirgəmirlər", - deyə nazir bildirib ki, gələcəyin zabitləri olacaq kursantlar ümummilli liderimizin yaratdığı bir məktəbdə təhsil almalarından iftixar hissi duymalı və dahi rəhbərin ideyalarına daim sədaqətli olmalıdırlar.

Kursantlara ulu öndər Heydər Əliyevin irsindən nümunə götürməyi tövsiyə edən nazirin sözlərinə görə, zabit olmağı qarşısına məqsəd qoyan hər kəs dövlətə və xalqa sədaqəti, mənəvi dəyərlərə bağlılığı ilə seçilməlidir. "Gələcəkdə ömrünü Vətəninə həsr etməyi lazım bilirsənsə, intizamda və təhsildə nümunə olmalı, hərbi biliklərə dərindən yiyələnməlisən. Tarix boyu xalqımızın başı bəlalar çəkib, güclü himayədarlarına arxalanan təcavüzkar Ermənistan tərəfindən torpaqlarımızda vəhşiliklər törədilib, millətimiz zaman-zaman soyqırımlarına məruz qalıb. Gərək zabit peşəsini seçən gənclər belə vaxtda daha məsuliyyətli olsunlar, müasir hərbi texnikaların sirlərini dərindən mənimsəyə bilsinlər".



Müdafiə naziri çıxışında son illər Azərbaycan xalqı və dövləti, şəxsən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ordunun inkişaf etdirilməsinə göstərilən diqqət və qayğıdan söhbət açıb və qeyd edib ki, hazırda hərbi hissələr müasir səviyyədə qurulur, yeni silah və hərbi texnikalar alınır. "Artıq ordunun təchizatında ən müasir silahlar vardır. Bu dövlətimizin iqtisadi inkişafının təzahürüdür. Hər kəs bilməlidir ki, xalqımız və dövlətimiz Silahlı Qüvvələrin hərbi potensialının artırılmasında maraqlıdır. Bizim vəzifəmiz isə torpaqlarımızı son qarışına kimi azad etməklə göstərilən bu yüksək etimadı layiqincə doğrultmaqdır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ilin birinci yarım ilinin sosial-iqtisadi inkişafını təhlil edərkən dediyi fikirlərə toxunan general-polkovnik Zakir Həsənov bildirib ki, dövlət başçısının göstərişinə əsasən, bütün hərbi hissələr yenidən qurulur, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Ali Baş Komandanın "Heç vaxt Azərbaycan dövləti indiki qədər güclü olmayıb" fikrinə istinad edən Müdafiə naziri ordumuzun düşmənə qətiyyətli cavab vermək əzmini xüsusi vurğulayıb və qeyd edib ki, işğalçı tərəf artıq vahimə içindədir. "Düşmən artıq anlayır ki, qarşısında qüdrətli Azərbaycan dövləti və məğlubedilməz ordumuz dayanıb. Onlar birdəfəlik bilməlidirlər ki, güclü ordumuz istənilən anda işğala son qoymağa qadirdir".

Kursantlara gələcəkdə savadlı, dünyagörüşlü, vətənpərvər zabit olmalarını arzulayan general-polkovnik Zakir Həsənov əminliklə bildirib ki, onlar çox çətin və mürəkkəb tarixi dövrdə yaşamağın, həmçinin, torpaqlarımızın 20 faizinin erməni hərbi birləşmələri tərəfindən işğal edilməsinin məsuliyyətini dərindən hiss etməli və buna görə də mübariz ruhda yetişməlidirlər. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanın qüdrətli ordusu vardır və biz heç zaman torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik".

Müdafiə naziri çıxışının sonunda kursantlara təhsildə və intizamda uğurlar arzulayıb və əminliklə qeyd edib ki, onlar xalqımızın tarixi qəhrəmanlıq ənənələrini layiqincə davam etdirəcəklər.

Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov tədbirdə çıxış edərək hərbi təhsil müəssisəsində son illər ərzində təlim və tərbiyədə qazanılmış önəmli uğurlardan danışıb. O qeyd edib ki, əvvəlki dövrlərlə müqayisədə hərbi təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün bir sıra vacib işlər görülüb.

Sonra Hərbi Liseyin müəllimi Sahib Əsədov və kursant Nail Qəribov söz alaraq göstərilən diqqət və qayğıya görə həm dövlətimizin başçısına, həm də Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Görüşdə Müdafiə naziri tərəfindən təhsildə və intizamda fərlənən bir qrup kursanta hədiyyələr təqdim edilib.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Dekabrın 31-də Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 31-də saat 10.00-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olunacaq.

"Açıq qapı" gününün məhz bu əlamətdar tarixdə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsini, dünya azərbaycanlılarının birlik və həmrəylik ideyasını təcəssüm edən 31 dekabr tarixi xalqımızın böyük bayramına çevrilib. Hər bir azərbaycanlı bu milli birliyə, bu həmrəyliyə öz töhfəsini verir.

"Açıq qapı" günündə ziyarətçilər hərbi hissələrdə şəxsi heyətin yaşayış və məişəti üçün yaradılan şəraitlə yaxından tanış olmaq, xidməti və inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Həmin gün hərbi hissələrin komandanlığı ilə valideynlərin görüşləri təşkil olunacaq, onları narahat edən sualların və maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək.

### Gizirimiz həlak olub

Noyabrın 30-da axşam saatlarında qoşunların təmas xəttində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu gizir Novruzov Fariz Əlabbas oğlu həlak olub. Fakt üzrə Hərbi Prokurorluq tərəfindən hadisənin baş verməsi şəraitinin müəyyən edilməsi üzrə araşdırma aparılıb. Araşdırmanın nəticəsi göstərib ki, gizir F.Novruzov düşmən tərəfdən atılan güllənin sapması nəticəsində şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, Ermənistan tərəfi regiondakı çətin hərbi-siyasi şəraitdən öz xeyrinə istifadə etmək məqsədilə vəziyyəti bir qədər də gərginləşdirməyə çalışır. Silahlı Qüvvələrimizin bölmələri tərəfindən əməliyyat şəraitinə uyğun olaraq düşmənin fəallaşması cəhdinin qarşısının alınması və şəhidlərin qanının yerdə qalmaması məqsədilə zəruri tədbirlər həyata keçiriləcək.

### Düşmənin cəbhədəki təxribatlarının qarşısı qətiyyətlə alınıb

Son günlər Ermənistan Silahlı Qüvvələri bütün cəbhəboyu ərazilərdə təxribat xarakterli fəaliyyətlərini genişləndirməyə çalışırlar. Regiondakı hərbi-siyasi vəziyyətdən istifadə etməyə çalışan erməni silahlı bölmələri dekabrın 4-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində müdafiənin ön xəttində yerləşən mövqelərimizə basqın etməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələri düşməni qabaqcadan aşkar edərək onun hərəkətinin qarşısını qətiyyətlə alıblar. Erməni tərəfi xeyli sayda itki verərək geri çəkilməyə məcbur edilib. Hazırda onun itkilərinin sayı dəqiqləşdirilir.

Düşmənlə döyüşdə Silahlı Qüvvələrimizin bir giziri yaralanıb. İlkin tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçu tibb müəssisəsinə təxliyyə edilib, sağlamlığına heç bir təhlükə yoxdur və həkimlərin nəzarəti altındadır.

Müdafiə Nazirliyi bildirir ki, ordumuz bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən hərəkətinin qarşısını qətiyyətlə almağa hazırdır.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 88 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 91 dəfə atəş zərbəsi endirib.

# Ciddədə Dağlıq Qarabağ münaqişəsinə dair beynəlxalq simpozium təşkil olunub

***İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Səudiyyə Ərəbistanının Ciddə şəhərindəki mənzil-qərargahında "Dağlıq Qarabağ münaqişəsinin həllində İƏT-in rolu: keçmiş səylər və perspektivlər" mövzusunda beynəlxalq simpozium təşkil olunub.***

Tədbir Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) və ölkəmizin Səudiyyə Ərəbistanındakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Simpoziumda İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyinin əməkdaşları, təşkilata üzv ölkələrin İƏT yanında daimi nümayəndələri və Ciddədə akkreditə olunmuş diplomatik missiyaların təmsilçiləri iştirak ediblər.

İƏT baş katibinin siyasi məsələlər üzrə müavini Abdullah Alim çıxış edərək deyib ki, təşkilat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hər zaman ölkəmizin haqlı mövqeyini dəstəkləyir, Ermənistandan işğal etdiyi ərazilərdən geri çəkilməyi tələb edir və beynəlxalq ictimaiyyəti bu məsələnin həllində fəal olmağa çağırır.

SAM-ın direktor müavini Gülşən Paşayeva Azərbaycanın İslam dünyasının tərkib hissəsi olduğunu və İƏT-ə üzv seçildiyi vaxtdan bu beynəlxalq təşkilatın fəal üzvlərindən birinə çevrildiyini qeyd edib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İƏT-in xüsusi rolunu vurğulayaraq məhz bu təşkilat tərəfindən dünya ictimaiyyətində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüz haqqında birmənalı fikir formalaşdırılğını deyib.

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Rasim Rzayev dövlətimizin xarici siyasəti, İƏT ölkələri ilə əməkdaşlıq vektoru, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında tədbir iştirakçılarını məlumatlandırıb. O, İyad bin Amin Mədəninin İƏT-in baş katibi seçilməsindən sonra BMT-nin baş katibi Pan Gi Muna ünvanladığı məktubda Ermənistanın işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşma siyasəti aparmasından narahatlığını ifadə etməsinin təşkilatın münaqişənin həllinə verdiyi önəmin təzahürü olduğunu diqqətə çatdırıb.

**AZƏRTAC-ın materialları əsasında**



# Silahlı Qüvvələrdə psixoloji iş üzrə təlim-metodiki toplantı

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən hərbi hissə və birləşmələrin psixoloqları, şəxsi heyətlə iş üzrə zabitləri ilə Silahlı Qüvvələrdə psixoloji işin təşkilinə və aparılmasına dair təlim-metodiki toplantı keçirilib.***

Cəbhə bölgəsində təşkil olunan toplantıda "Silahlı Qüvvələrdə psixoloji işin təşkilinə və aparılmasına dair təlimat"ın qüvvəyə minməsi barədə Müdafiə nazirinin müvafiq qərarının tələbləri ətraflı öyrənilib.

İxtisaslı mütəxəssislər tərəfindən şəxsi heyətin fərdi-psixoloji xüsusiyyətlərinin aşkarlanması, psixoloji hazırlığı, psixoloji yardıma ehtiyacı olan hərbi qulluqçuların müəyyən edilməsi, onlara psixoloji yardımın göstərilməsi üzrə tələblər və tövsiyələr çatdırılıb, eləcə də həyata keçiriləcək fəaliyyətlər barədə ətraflı müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Əlahiddə Ümumqoşun Orduda buraxılış mərasimi

***Naxçıvan Muxtar Respublikasında Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Bütün bunların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Orduda həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları təşkil edilir. Bu kursları müvəffəqiyyətlə bitirən məzunlar öz xidmətlərini ordu sıralarında şərəflə və məsuliyyətlə davam etdirirlər.***





Bu günlərdə həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursunu bitirən məzunların növbəti-səkkizinci buraxılış mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və buraxılış mərasimi açıq elan olunub. Müdafiə nazirinin müavini-Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb.

Buraxılış mərasimində çıxış edən zabitlər onların sıralarına qoşulan məzunları təbrik edərək, çətin və şərəfli xidmətdə uğurlar arzulayıblar.

Məzunlar adından çıxış edən Miryunis Seyidov bildirib ki, doğma Vətənin müdafiəsində bundan sonra da ayıq-sayıq dayanacaq, verilən tapşırıqların öhdəsindən layiqincə gələcəklər.

Valideynlərdən Ədalət Zalov çıxış edərək həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursunun ordu quruculuğu istiqamətində məqsədyönlü tədbir olduğunu vurğulayaraq dövlətimizin rəhbərliyinə minnətdarlığını bildirib.

Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edib.

Kurs birincisi Toğrul İsmayılov tərəfindən yaş kötüyünə buraxılış emblemi vurulub.

Sonda məzunlarla xatirə şəkili çəkdirilib.

**Nəriman NƏCƏFOV, "Azərbaycan Ordusu"**

# Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri ilə toplantı keçirilib

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən dekabrın 4-də xarici dövlətlərin silahlı qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün illik yekun toplantısı keçirilib. Tədbirdə 24 ölkədən 33 nümayəndə iştirak edib.***

Toplantıda çıxış edən Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov regionda mövcud olan hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, eləcə də Silahlı Qüvvələrdə aparılan islahatlar, inkişaf perspektivləri barədə qonaqlara ətraflı məlumat verib.

Görüşdə il ərzində beynəlxalq hərbi əməkdaşlıq sahəsində həyata keçirilən fəaliyyətlər hərbi attaşelərin diqqətinə çatdırılaraq "Azərbaycan Respublikasında akkreditə olunmuş Hərbi Attaşelik Aparatlarının fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi Qaydaları" və 2016-cı ildə planlaşdırılan tədbirlər barədə brifinq təqdim olunub.

Hərbi Attaşelər Assosiasiyası adından Polşa Respublikası Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Zbiqnev Vasilevskiy çıxış edərək yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və səmərəli əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu qeyd edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



*Şahinlərimiz*

# "Arzum övladımla Qarabağ səmalarında uçmaqdır"

***Azərbaycan Hərbi Hava Qüvvələri Silahlı Qüvvələrimizin xüsusi qoşun növüdür. Cənubi Qafqazda maddi-texniki imkanlar baxımından Azərbaycan ən çox döyüş təyyarəsi olan ölkə sayılır.***

Hərbi Hava Qüvvələrinin yaradılması zəruri idi. Səbəb aydındır - işğal altında olan Azərbaycan əraziləri yüksək relyefə malikdir və bu əraziləri işğaldan qurtarmaq işində qırıcıların, hərbi təyyarələrin və hava hədəflərini vuracaq texnikaların əvəzi yoxdur. Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin hazırlanmasında mühüm bazadır. Və bu gün cəsarətlə demək olar ki, kifayət qədər təcrübəli təyyarəçilərimiz var.

Mayor Novruz İslam oğlu Tahirov 1983-cü ildə Bakı şəhərində anadan olub. Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib. Ailəlidir. 2 övladı var.

***- Hərbçi peşəsi çətin və məsuliyyətlidir. Təyyarəçi olmaq isə ikiqat məsuliyyət deməkdir. Hərbçi, ən əsası da təyyarəçi olmanıza xüsusi bir səbəb varmı?***

- Atam keçmiş hərbçi olub. HHQ-nin tabeliyində olan hərbi hissələrdən birində gizir kimi xidmət edib. Uşaqlığım hərbi şəhərçikdə keçib. Evdə, həyətdə, məktəbə gedəndə, yolda forma geyinən hərbçilər, ətrafıma baxanda isə helikopter, qırıcı görmüşəm. Yəni qısaca mən forma geyinib xidmətə başlayanda yox, doğulan gündən Vətənə bağlanmışam. Hətta uşaqlıq şəkillərimə baxanda belə əynimdə atamın hərbi geyimi və papağı olan nə qədər şəkillə rastlaşıram. Xatirələrim baş qaldırır. O günlərə qayıdıram. Tək arzum özümə məxsus hərbi formanı geyinmək olub.

**- Deməli, hərbçi olmağınızda atanızın mənəvi rolu böyük olub...**

- Orta məktəbi bitirməmiş hərbçi olmağı qərara almışdım. Atama da bu fikrimdən bəhs etmişdim. Qərarıma hörmətlə yanaşdı və dedi:

"Çətin, amma şərəfli peşəni seçirsən. Yolumu davam etdirmək istəyin məni sevindirdi, qürurlandırdı. Olduqca məsuliyyətli, nizam-intizamlı və bacarıqlı olmalısan. Bunu özün üçün yox, Vətənin, xalqın, millətin üçün etməlisən. Söz verirəm ki, sən ordu sıralarına daxil olanda mən təxris olacağam". Dediyi kimi də etdi. 2000-ci ildə mən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil oldum. Elə həmin il atam ehtiyata çıxdı. İnanın ki, bu gün Vətənə xidmət etməkdən, atamın yolunu davam etdirməkdən nə qədər qürurluyam.

***- Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil oldunuz. Arzularınızın ilkin mərhələsini uğurla qət etdiniz. Sonrakı təhsiliniz necə davam etdi?***

- Əlbəttə, gələcəyin bacarıqlı pilotu olmaq üçün oxuduğum müddətdə dərslərimə xüsusi diqqət edirdim. Təyyarə idarə etmənin nə dərəcədə önəmli olduğunun fərqindəydim. Məsuliyyətli olmalı, öz peşəmi dərindən mənimsəməliydim. Həmişə hərbi geyimə hörmətim olub, səliqəli görünməyə, intizamlı olmağa ciddi fikir vermişəm. 2004-cü ildə məzun olduqdan sonra Uçuş Hazırlığı Təlim Mərkəzində təlim uçuşlarına başladım.

***- İlk uçuşunuz yadınızdadır? Hansı hissləri keçirdiniz?***

- 15 aprel 2005-ci il tarixini heç vaxt unutmaram. İlk sərbəst uçuşumu yerinə yetirəcəkdim. Hərbi Təyyarəçilik Məktəbində və Uçuş Hazırlığı Təlim Mərkəzində kifayət qədər təcrübə toplamışdım. Amma həyəcanlı və sevincli idim. O dəqiqələrdə hansı hisslər yaşadığımı təsəvvür belə edə bilməzsiniz.

L-39 tipli təlim məşq təyyarəsinə qalxdım. Bütün yoxlamalar keçirildikdən sonra havaya qalxmağa icazə verildi. Təkərlər yerdən üzüləndə "axır ki bacardım" deyə qışqırdım. İlk uçuşumu uğurla başa vurub, nöqsansız şəkildə yerə endim. Həmin gün həyatımın ən unudulmaz, ən yaddaqalan günlərindəndir.

***- Xidmətiniz ərzində təxminən neçə uçuş keçirmisiniz?***

- Uçuşlarımın sayını dəqiq deyə bilmərəm. Minlərlə uçuş keçirmişəm.

İdarə etdiyimiz təyyarələr saz vəziyyətdədir. Amma havada hər an ekstremal şəraitlə qarşılaşa bilərsən. Bu zaman pilot soyuqqanlı olmalı, vəziyyəti dəyərləndirməlidir. "Mən hardayam, ekstremal hal nədən ibarət ola bilər, nə etməliyəm", sualları qarşısında gərək aciz qalmayasan və düzgün qərar çıxarmağı bacarasan.

***- Digər ölkələr arasında Azərbaycan təyyarəçiləri necə qiymətləndirilir?***

- Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuşlar keçirmiş təyyarəçilər sayılır. Azərbaycan pilotları əsasən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrdə isə müvafiq ixtisasartırma kursları və təlimlər keçirlər.

Bildiyiniz kimi, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2015" birgə taktiki təlimləri keçirildi. Təlimlər zamanı təyyarəçilərimizin göstərdiyi hünər və rəşadət qonşu ölkənin pilotlarını heyrətləndirdi.

***- Vətənimizi havada qoruyan biri kimi həyatınızda hər hansı çətinlik çəkdiyiniz məqam varmı?***

- Biz milyonlarla dollar dəyərində texnikanı idarə edirik. Pilot uçarkən hər hansı bir problemini düşünməməli, diqqətini öz işində cəmləşdirməlidir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təyyarəçilərə, ümumiyyətlə, Hərbi Hava Qüvvələrinə xüsusi diqqət yetirdiyinin şahidiyik. Ali Baş Komandanın hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən tikilib istifadəyə verilən müasir binalardan birində geniş və yaraşıqlı mənzillə təmin olunmuşam. Bütün bunlar xidmətimi qüsursuz yerinə yetirməyim üçün əlavə stimuldur.

***- 2 övladınız var. Onların da yolunuzu davam etdirməsini istərdiniz?***

- Oğlum İslam 7, qızım Fatimə isə 8 yaşındadı. İslam böyüyəndə polis olacağını deyir. Qızım isə mənim yolumu davam etdirmək niyyətindədir. Dərslərində də fəaldır. Hər dəfə soruşur ki, ata, pilot olmaq üçün hansı dərsləri oxumalıyam?

Səmimi bir söhbət edim. Bir gecə evə gəldim. Uçuşdan qayıtmışdım. Qızım yanıma gəlib "ata, sənə şeir yazmışam", - dedi.

*Atam uçur göylərdə,*
*Mən ona baxıram,*
*Qərar verdim o zaman*
*Mən də pilot olacam.*

*Mən onu gözləyirəm,*
*Sevib əzizləyirəm,*
*Ona bərkdən deyirəm,*
*Ata, səni sevirəm.*

Bu şeir həyatımda aldığım ən dəyərli hədiyyəm oldu və mən də Fatiməyə söz verdim ki, onun pilot olması üçün əlimdən gələni edəcəm. Qızımla birgə Qarabağ səmalarında uçmaq arzusundayam....

***- Təyyarəçi olmaq arzusunda olanlara nə demək istərdiniz?***

- Respublikamızda istənilən sahədə inkişaf var. Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı hər bir döyüşçümüzə düşmən üzərində qələbə qazanmaq üçün stimul verir. Bu yolu seçiblərsə, məsuliyyət və nizam-intizam əsas şərtdir. Bacarıqlı pilot olmaq üçün, ümumiyyətlə, hərbçi peşəsini seçirsənsə, taleyini bu peşəyə bağlamaq fikrin varsa, yetərincə vətənpərvər, xalqına və dövlətinə sədaqətli olmalısan. Məncə, ən önəmli şərtlər bunlardır.

***- Maraqlı söhbət üçün sağ olun. Arzu edərdim ki, tezliklə sizdən növbəti müsahibəni Qarabağımızda hazırlayım.***



**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyə ilə Qətər arasında qaz ticarətinə dair saziş imzalanıb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qətərə səfəri çərçivəsində iki ölkə arasında maye qaz ticarətinə dair saziş imzalanıb.

Türkiyənin BOTAŞ və Qətərin milli neft şirkətləri arasında imzalanmış sənədə əsasən, Qətərdən Türkiyəyə uzunmüddətli maye qaz ixrac olunacaq.

Qeyd edək ki, Türkiyə Qətərdən ən çox həcmdə maye qaz alan ölkədir.

### ABŞ-da baş verən silahlı insidentdə 14 nəfər ölüb



ABŞ-ın San-Bernardino şəhərində (Kaliforniya ştatı) məhdud fiziki imkanlı insanlar üçün müəssisədə silahlı insident baş verib.

Naməlum şəxs və yaxud şəxslərin açdığı atəş nəticəsində 20 nəfər dünyasını dəyişib.

Hazırda polis hadisənin təfərrüatını araşdırır, cinayətkarların tapılması istiqamətində iş aparır.

### "Bürc-Xəlifə" dünyanın ən hündür binası titulunu itirə bilər



Dünyanın ən hündür binası olan Dubayın "Bürc-Xəlifə" göydələni öz titulundan məhrum ola bilər. Belə ki, Səudiyyə Ərəbistanı Ciddə şəhərində bir kilometr hündürlüyündə qüllə tikmək niyyətindədir.

Səudiyyə Ərəbistanı hökumətinin press-relizində "Jeddah Economic Company" şirkətinin və yerli "Alinma" investisiya fondunun kompleksin tikintisi üçün 8,4 milyard Səudiyyə rialı (2,2 milyard dollar) həcmində maliyyə sazişi imzalandığı qeyd olunur.

Hazırda layihə 26-cı mərtəbəyə qədər tikilib. Binanın final hündürlüyü isə 3280 fut (1000 metr) olmalıdır. Göydələnin 2020-ci ildə tamamlanması planlaşdırılır. Müqayisə üçün qeyd edək ki, "Bürc-Xəlifə" 2716 fut (827 metr) hündürlüyə malikdir.

### İspaniyada əhalinin sayı azalır




İspaniyanın Milli Statistika İnstitutu 2015-ci ilin birinci yarısına dair demoqrafik göstəriciləri açıqlayıb. Rəqəmlər ölkənin gələcəyi üçün narahatedici səviyyədədir.

Məlumatda deyilir ki, ilin birinci yarısında ölkədə doğulanların sayı 206 mindən bir qədər artıq olduğu halda, ölənlərin sayı bundan demək olar ki, 20 min nəfər çox, təqribən 226 min nəfər olub. Beləliklə, ölkədə təbii artım baş verməyib, əksinə, azalma qeydə alınıb.

Statistika İnstitutu bir məqama da diqqət yetirir ki, bu dövrdə doğulanların 17 faizi İspaniya vətəndaşı olmayan analar tərəfindən dünyaya gətirilib.

### Macarıstanda İŞİD təhlükəsi ilə bağlı həyəcan güclənir




Çexiyada özünü "İraq Şam İslam Dövləti" adlandıran terrorçu təşkilatla (İŞİD) bağlı məlumata maraq artıb. Cəmiyyətdə İŞİD təhlükəsi ilə bağlı həyəcan da artır. İctimai Rəyin Öyrənilməsi Mərkəzinin noyabrın 2-9-da apardığı araşdırma göstərib ki, İŞİD ətrafında hadisələrə dair məlumat ölkə əhalisinin üçdə iki hissəsini maraqlandırır. Özlərini "fəal maraqlanan" adlandıranların sayı bu ilin iyul ayından 8 faiz artıb. Mərkəzin verdiyi məlumata görə, təhlil noyabrın 13-də Parisdə törədilən terror aktlarından əvvəl aparılıb. Analitiklər belə bir məsələyə diqqət yetiriblər ki, rəyi soruşulanların 77 faizi İŞİD-in Macarıstan üçün təhlükəli olduğunu hesab edib. Macarıstan vətəndaşlarının 88 faizi İŞİD-i bütün dünyaya əsas təhlükə mənbəyi kimi qəbul edib.

### Hindistan: daşqınlar nəticəsində həyatını itirənlərin sayı 260 nəfəri ötüb



Hindistanın daxili işlər naziri Racnatx Sinqx yerli NDTV telekanalının efirində çıxış edərkən ölkənin cənubunda baş verən daşqınlar nəticəsində həyatını itirənlərin sayının 260 nəfəri keçdiyini bildirib. Təbii fəlakətlə əlaqədar Çennai şəhərindəki beynəlxalq hava limanı fəaliyyətini bazar gününədək dayandırıb. Hazırda şəhərdən 70 kilometr aralıda yerləşən hərbi-dəniz aviasiya bazası kommersiya uçuşları üçün istifadə olunur. Regiondakı yaşayış məntəqələrinə elektrik enerjisinin verilməsində problemlər yaranıb.

Hindistan hökumətinin rəsmi məlumatına əsasən, təbii fəlakət zonasında 15 xilasedici dəstə fəaliyyət göstərir. Xilasedicilərə, həmçinin Hindistan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 və 5 ədəd "Chetak" helikopteri yardım edir. Bundan başqa, əraziyə Bxubaneşvara və Nyu-Delidən daha 7 xilasetmə dəstəsi cəlb olunacaq.

Xatırladaq ki, noyabrın 9-da Benqal körfəzinin Tamilandu sahilləri aşağı atmosfer təzyiqi sahəsinin təsiri altına düşüb. Nəticədə aramsız yağan leysan yağışları güclü daşqınlara səbəb olub.

### Britaniyada güclü yanğın baş verib



Britaniyanın Nyukasl şəhərində şiddətli yanğın baş verib. Dördmərtəbəli binada baş verən yanğın 5 saatdan artıq davam edib. Alovun söndürülməsi üçün 11 yanğınsöndürən maşın, 55 nəfərdən ibarət briqada cəlb edilib. Ətraf binalarda 80 nəfərdən çox sakin evakuasiya edilib. İndiyədək əldə edilən məlumata görə, yanğın nəticəsində ölənlər yoxdur. Lakin alov tüstüsünə görə binanın ən üst mərtəbəsində tam yoxlama aparmaq mümkün olmayıb.

**AZƏRTAC-ın materialları əsasında**

## General Səməd bəy Mehmandarov - 160

# Hərbi Liseydə bilik yarışması

***Görkəmli hərb xadimi tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısının imzaladığı sərəncamın icrası ilə əlaqədar olaraq, Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirlər planı təsdiq edib. Tədbirlər planına əsasən, Müdafiə Nazirliyinin hərbi hissə, birlik və birləşmələrində, xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri S.Mehmandarovun 160 illiyinə həsr olunan silsilə yubiley tədbirləri keçirilir.***



Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə görkəmli sərkərdənin 160 illik yubileyinə həsr edilən bilik yarışması təşkil edilib. "General Səməd bəy Mehmandarov haqqında nələr bilirik?" mövzusunda tədbir ulu öndər Heydər Əliyevin, tam artilleriya generalı S.Mehmandarovun Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canını fəda edən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin ifasından sonra başlandı. Hərbi liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik Rəhim Səmədov tədbiri açıq elan edərək yarışmada iştirak edəcək komandalara sağlam rəqabət, uğurlar arzuladı. Polkovnik Azərbaycanın hərb tarixinə adı qızıl hərflərlə həkk edilən sərkərdələrdən və onların keçdiyi döyüş yollarından danışaraq Əlağa Şıxlinski, Hüseyn xan və Cəmşid xan Naxçıvanskilər, Həbib bəy Səlimov kimi generallarımızın şərəfli xidmət yollarının hər kəsə örnək olduğunu vurğuladı və bilik yarışmasını aparmaq üçün sözü liseyin metodisti Mətanət İmamquliyevaya verdi. Aparıcı komandaları, münsiflər heyətini səhnəyə dəvət edərək bilik yarışmasının şərtlərini iştirakçıların diqqətinə çatdırdı.



Yarışmanın şərtlərinə əsasən, viktorina 2 tur üzrə keçirilməklə hər komandaya 7 sual tərtib edilib. 3 komanda (hər kursdan bir komanda) bilik yarışmasının iştirakçısıdır. Hər komandanın 5 üzvü olmaqla, 1 nəfər kapitan təyin edilir. Komandalara ünvanlanan hər bir suala 30 saniyə müddətində cavab verilir və cavab 1 balla qiymətləndirilir. Heç bir komanda digər komandanın sualını cavablandırmamalı və əgər icazəsiz müdaxilə edilərsə, həmin komandanın bir balı hesaba alınmır. Sonra bildirildi ki, 1-ci komanda "Cəsurlar" (1-ci kurs), 2-ci komanda "Şahinlər" (2-ci kurs), 3-cü komanda "Qartallar"dan (3-cü kurs) ibarətdir. Birinci tur hər bir komanda üçün gərgin mübarizə şəraitində keçdi və münsiflər heyəti komandaların ballarını hesablayıb müəyyən olunan yerləri elan etdi.

İkinci turun yarışmasında da komanda üzvləri yüksək məharət və bilik nümayiş etdirməyə çalışırdılar. Beləliklə, münsiflər heyəti komandaların 1-ci və 2-ci tura görə ballarını nəzərə alaraq qiymətləndirdi, qalib komandanın adını açıqladı. Nəticədə "Qartallar" 1-ci, "Şahinlər" 2-ci, "Cəsurlar" 3-cü yerə layiq görüldülər.

Bilik yarışmasının sonunda Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov qalib komanda üzvlərinə fəxri fərman və hədiyyələr təqdim etdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Voleybol birinciliyi başa çatdı

***Bir deyimi xatırlayıram: "İdman sağlamlığın rəhnidir". Həqiqətən belədir. İdman gənclərin normal fiziki inkişafını təmin etməklə onların həyatında mühüm rol oynayır. Bu amil hər şeydən öncə hərbçilərə aid edilməlidir.***

Ümummilli liderimiz Heydər Əliyev digər sahələr kimi idmanı da həmişə prioritet hesab edərək, onun inkişafına xüsusi diqqət yetirirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də idmanın inkişafı istiqamətində mühüm tədbirlərin sosial həyatımızın tərkib hissələrindən birinə çevrilməsini təmin edib. Təsadüfi deyil ki, indi Azərbaycan dünyada idman ölkələrindən biri kimi tanınır. Bunu Birinci Avropa Oyunları da təsdiqlədi. Bu yarışlarda Silahlı Qüvvələrimizi təmsil edən idmançılar da uğurla çıxış etdilər.



Hərbçi həm də yüksək fiziki hazırlığa malik olmalıdır. Sağlam orqanizmin bu və ya digər səviyyəli çətinliklərə dözümü, taqəti çox olur. Sirr deyil ki, hərbçinin həyatında xidmət müddətində belə çətinliklərin olması istisna deyil. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində bütün sahələr kimi idmana da ciddi diqqət yetirilir, gələcək zabitlərin fiziki hazırlığına da həmişə məsuliyyətlə yanaşılır. Bunun nəticəsidir ki, idmanın bu və ya digər növü ilə məşğul olan kursantlar doğma təhsil ocağını mötəbər yarışlarda layiqincə təmsil edirlər.

Ənənəvi olaraq məktəbin voleybol komandası yarışlarda həmişə mükafatalayiq yerləri tutur. Bu il Silahlı Qüvvələr birinciliyində də komanda öz ənənəsinə sadiq qaldı. Belə ki, komanda bütün rəqiblərini məğlub edərək yarışın qalibi oldu.

**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Azərbaycan idmançısı Zaur Hacıbabayev MMA üzrə ikiqat dünya çempionu olub



Çexiyada qarışıq döyüş növləri (MMA) üzrə keçirilən dünya çempionatına yekun vurulub.

40 ölkədən idmançıların iştirak etdiyi mötəbər yarışda Azərbaycan baş məşqçi Etiqad Atakişiyevin rəhbərliyi altında 5 döyüşçü ilə təmsil olunub.

Azərbaycan millisinin heyətində Zaur Hacıbabayev qızıl medala sahib olub. Bütün rəqiblərinə qalib gələn Z.Hacıbabayev 100 kiloqramdan yuxarı çəki dərəcəsində karyerasında ikinci dəfə planetin ən güclüsü seçilib. İdmançımız finalda Qazaxıstan təmsilçisi Məhəmməd Süleymanov üzərində nokautla qələbə qazanıb. Emin Hüseynov (61 kq) və Taleh Nəcəfzadə (84 kq) isə bürünc medala sahib olublar.

Komanda hesabında Azərbaycan Rusiya və Qazaxıstandan sonra üçüncü yeri tutub.

### Kempo döyüş növü üzrə Avropa çempionatında Azərbaycanı üç idmançı təmsil edir



Dekabrın 2-də Macarıstanın paytaxtı Budapeştdə kempo döyüş növü üzrə yeddinci Avropa çempionatı başlayıb.

Yarışda iştirak edən Azərbaycan millisinin heyətində Xəyal Məmmədzadə (75 kq), Pərviz Paşayev (90 kq) və İlham Ağaverdiyev (100 kq-dan yuxarı) yer alıblar. Millimiz çempionatda Azərbaycan Kempo Federasiyasının prezidenti Rauf İbrahimovun rəhbərliyi altında mübarizə aparır.

Çempionata dekabrın 6-da yekun vurulacaq.

### Lənkəranlı güləşçi İrandan gümüş medalla qayıdıb



İranın paytaxtı Tehran şəhərində yeniyetmələr arasında keçirilən güləş üzrə beynəlxalq turnirdə Azərbaycan millisi uğurla çıxış edərək komanda hesabında ikinci yeri tutub.

10 komandanın iki yarımqrupda mübarizə apardığı beynəlxalq turnirdə Azərbaycan güləşçiləri öz qrupunda bütün rəqiblərinə qalib gəliblər.

Yarımfinalda Tacikistan komandasını məğlub edən millimiz finalda iranlı həmyaşıdları ilə qarşılaşıb. Final qarşılaşmasında nəticələr bərabər olsa da, xal hesabında cənub qonşularımız üstünlük qazanıb. Nəticədə Azərbaycan millisi komanda hesabında beynəlxalq turnirdə ikinci yeri tutub. Milli komandamızın tərkibində beynəlxalq turnirdə ilk dəfə çıxış edən lənkəranlı idmançı Ceyhun Zeynallı 35 kiloqram çəki dərəcəsində gümüş medal əldə edib. Xatırladaq ki, o, bundan əvvəl respublika çempionatının qalibi olub.

### Azərbaycan şahmatçıları "Qatar Masters Open-2015" turnirinin favoritləri sırasındadır



Dekabrın 19-dan 30-dək Qətərin paytaxtı Dohada şahmat mövsümünün mötəbər turniri olan "Qatar Masters Open-2015" keçiriləcək.

Doqquz turdan ibarət olacaq açıq turnirdə İsveçrə sistemi tətbiq ediləcək. İkinci dəfə start götürəcək "Qatar Masters" açıq turnirinin favoritləri siyahısında Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov da yer alır. Digər ölkələrdən favoritlər arasında Norveçdən olan hazırkı dünya çempionu Maqnus Karlsen də var. Bundan başqa, turnirə hollandiyalı Aniş Qiri, ABŞ-dan Uesli So, rusiyalı Vladimir Kramnik və eləcə də ukraynalı şahmatçı Vasiliy İvançuk qatılacaq.

Mükafat fondu 130 min ABŞ dolları olan yarışda tanınmış qadın şahmatçılar da təmsil olunacaq. Birinci yerə 27 min, qadınlar arasında ilk mükafatçıya isə səkkiz min dollar veriləcək. Ən yaxşı 20 yaşlı gənc şahmatçı üçün min beş yüz dollar pul mükafatı nəzərdə tutulub.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

### Silahlanmaya 250 milyard dollar vəsait ayrılacaq

Böyük Britaniya silahlanmaya 250 milyard dollar vəsait ayırmaq niyyətindədir. Bu haqda həmin ölkənin müdafiə naziri Maykl Fellon məlumat verib. "Biz hər zaman çoxlu sayda müasir çağırışlara hazır olmalıyıq. Və biz gələcəyə kapital qoyuluşunu həyata keçiririk". Daha sonra o qeyd edib ki, indiyə qədər 200 mindən çox hərbi qulluqçu 50 ölkədə 300-dən çox missiyanı həyata keçirib.

### Üç nəqliyyat təyyarəsi alınacaq

Briqada generalı Xoselito Kakilalın rəsmi məlumatına görə, Filippin İcpaniyadan 119 milyon dollar məbləğində üç ədəd S295 nəqliyyat təyyarəsi alacaq. Onlardan biri ilin sonuna əldə olunacaq, maşından təbii fəlakətlər zamanı və digər məqsədlər üçün istifadə ediləcək. İki mühərrikli belə təyyarə doqquz tona qədər yük və 71 nəfər adam daşımağa qadirdir.

### ABŞ atom gəmilərində hipersəsli silah yerləşdirəcək

ABŞ "İldırımsürətli qlobal zərbə" konsepsiyası çərçivəsində "Virciniya" növlü atom gəmilərində hipersəsli silahların yerləşdirilməsini planlaşdırıb. Bu haqda RF-ın Müdafiə nazirinin müavini Anatoli Antonov Asiyada "Şanqri-La Dialoq" təhlükəsizlik üzrə 14-cü beynəlxalq konfransda bildirib. Bu tipli atom sualtı qayıqları sərbəst suüstü gəmilərə qarşı mübarizə aparmaq və qanadlı raketlərlə yerüstü hədəflərə zərbə endirmək üçün nəzərdə tutulub.

### Airbus hərbi məhsula olan tələbatını artırmağa hazırlaşır

Airbus Qrup şirkəti Asiya regionunda hərbi təyyarələrə olan tələbatı artırmağı proqnozlaşdırır. Airbusun icraçı vitse-prezidenti Kristian Şererin nəzərinə görə, beş il ərzində Asiya regionunun kosmik-müdafiə bazarı 50 milyard dollara qədər arta bilər. Çin və Yaponiya son illər öz hərbi büdcələrini getdikcə artırmaqdadır. Şerer onu da qeyd edib ki, ən çox tələbat kəşfiyyat, dəniz gözətçi təyyarələrinə, qırıcı və pilotsuzlara olacaq.

### İndoneziya Be-200 təyyarəsini ala bilər

"Risiya müdafiəeksport"un direktor müavini Sergey Qoreslab "RİA Xəbərlər"ə müsahibəsində LİMA-2015 sərgisinin nəticəsinə əsasən bildirib ki, İndoneziya üc ədəd Be-200 amfibiya-təyyarəsi ala bilər. Bu təyyarə Air Asiya şirkətinə məxsus olan A-320 təyyarəsinin qəzasında axtarışlar zamanı özünü doğruldub. Hazırda bu məqsədlə danışıqlar aparılır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Vətən daşı olmayandan...

***Ölməz şairimiz Məmməd Arazın bir şeirində deyilən bu sözlər insanın bütün vücudunu titrədir. Hamımız Vətən adlı bir qalanın daşlarıyıq. Bu daşlar Vətənə söykənib, Vətən də bu daşlara.***

Vətənpərvərlik ailədən başlanır. Körpəsini ilk qucağına aldığı anda hər bir valideynin ən böyük arzusu övladını Vətəninə, millətinə layiq vətəndaş kimi görməkdir. İlk baxışda mücərrəd görünən bu anlayış əslində konkret əməllərdə təzahür edir. Vətəni sevmək, Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməyi ilə Vətənin şöhrətini artıra bilər. Yetər ki, ürəkdə təpər, istək, təssübkeşlik olsun.

Əsgər döyüş meydanında vuruşur, Vətən qarşısında borcunu səngərdə yerinə yetirir. Fəhlənin, mühəndisin əməyi ilə məmləkətin iqtisadi qüdrəti artır. Alim əməyi isə Vətən üçün günəş işığı ilə müqayisə edilə bilər.

Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə Vətənə, millətə sevgi hissini, müxtəlif istiqamətlərdə yurduna xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün fədakarlıq dayanır. Bu vətənpərvərliyin ən uca və ali formasıdır. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir desək, bəlkə də yanılmarıq.

Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuzun igid, cəsur övladları yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizə aparmışlar. Bu igid Vətən övladları doğma yurd naminə canlarından keçməklə əsl vətənpərvərlik nümunəsi göstərərək, həyatda şərəfli iz qoyub getmişlər.

Milli Qəhrəmanımız Mübariz İbrahimov da özünü Vətən daşı hesab edirdi. Millətini, torpağını canından əziz bilib, Vətənin yaşamasını özünün bir ömür payından üstün tutub canından keçdi. Bu gün onun yüksəldiyi zirvə sadəcə doğulub boya-başa çatdığı kənddən görünmür. Azərbaycanın, bütün Türk dünyasının hər yerindən görünür, hörmətlə, sevgiylə yad edilir.

## Düşüncələr

Əslində bu zirvəyə gedən yol Biləsuvar rayonunun Əliabad kəndindən başlamışdı. Mübariz dünyaya göz açdığı dövrdə erməni işğalçıları Vətənimizin dilbər guşəsi olan Qarabağ bölgəsində torpaq iddiası ilə münaqişə yaratmağa başlamışdı. Bəlkə də Tanrı Mübarizi bu yağı düşmənlə mübarizə aparmaq üçün dünyaya gətirmişdi. Ailənin üçüncü övladı, sonbeşiyi idi. O, uşaqlıqdan imanlı, bütün insani keyfiyyətlərə malik valideynləri - atası Ağakərim kişinin, anası Şamama xalanın dəyərli tərbiyəsi ilə böyümüş, Vətənə, xalqa, haqqa, ədalətə sədaqət ruhunda tərbiyə almışdı. Ata-anasına məktubunda da dediyi kimi, o, Vətəninin bir parçasının düşmən tapdağı altında qalmasına dözə bilmirdi. Vətən uğrunda daim mübarizə aparmaq, düşməndən qisas almaq hissi ilə yaşayırdı. Və öz qəhrəmanlığı ilə Azərbaycan oğlunun Vətəni üçün nəyə qadir olduğunu bütün dünyaya sübut etdi. Mübariz əslində öz fədakarlığıyla Vətən sevgisinin nə qədər uca olduğunu göstərdi.

İndi Əliabad kəndində Mübarizin doğulub boya-başa çatdığı ev əsl ziyarətgaha çevrilib. Vətən məhəbbətinin, yurd sevgisinin, qəhrəmanlıq və mübarizlik timsalının ziyarətgahına. Bura ziyarətə gələn insanların təsəlli sözlərinə ata və ananın yalnız bir cavabı olur... Təki Vətən sağ olsun!

Vətən torpağını, bayrağını səcdəgah, toxunulmaz, müqəddəs bilən oğullarımızdan biri də Qarabağ cəngavəri Əlif Hacıyev idi. Onun əzmkarlığı sayəsində Xocalı aeroportu erməni millətçilərinin nəzarətindən tamamilə çıxmışdı. Əlif Hacıyevin erməni daşnakları ilə mübarizəsi Qarabağ hadisələrindən əvvəl başlamışdı. Qarabağda, Xankəndidə erməni millətçilərinin gizli fəaliyyəti, azərbaycanlılara qarşı məkrli niyyətləri onun diqqətindən yayınmamışdı. Vətənpərvər polis zabiti erməniləri ifşa etməkdən çəkinmirdi. Buna görə də erməni millətçiləri onu saxta ittihamlarla günahlandırıb 10 il həbs cəzasına məhkum etmişdilər. Sonradan bəraət alaraq azadlığa buraxılmışdı.

Qədim Xocalının başının üzərini qara buludlar alanda Əlif Hacıyev var qüvvəsini səfərbər etdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə o da digər qeyrətli həmvətənləri ilə döyüşlərə atıldı. Qüvvələrin qeyri-bərabər olmasından qorxmayan igid Vətən oğlu aeroportdakı məxfi sənədlərin düşmən əlinə keçməməsi üçün dispetçer məntəqəsini partladır. Düşmənin zirehli hərbi texnikaları Xocalıya girəndə isə köməksiz qalan adamları Ağdamın Şelli kəndi istiqamətinə çıxarıb, yenidən geri qayıdır. Avtomatın darağını dəyişərkən düşmən gülləsi Qarabağ cəngavərinin qəlbinə sancılır və Əlif Hacıyev şərəfli ölümü ilə şəhidlik zirvəsini fəth edir.

2014-cü ilin avqustunda erməni diversiya qrupu mövqelərimizdə təxribat törətmək istərkən qəhrəman oğullarımız tərəfindən layiqli cavablarını alaraq geri çəkilmişdilər. Döyüş meydanından şəhidlərimizin təxliyyəsi zamanı yüksək rütbəli zabitlərimiz gördükləri bir mənzərə qarşısında keçirdikləri hissləri ifadə etməkdə çətinlik çəkirdilər. Vətənini canından çox sevən, onun uğrunda son damla qanınadək vuruşan Azərbaycan əsgərinin bütün vücudu düşmən gülləsindən deşik-deşik olmuş, lakin son nəfəsində belə barmağını tətikdən çəkmədən başını silahının üzərinə qoyaraq əsl Vətən daşına çevrilmişdi.

Bəzən düşünürəm: həyatı yarımçıq kəsilən, arzuları ürəklərində qalan bu gənclər başqa cür hərəkət edə bilərdilərmi? Dərhal da ürəyimin harayını eşidirəm. Əsla yox. Ana Vətənin dar günündə onun qoynunda boy atan övdadları necə sakit dayana bilər?! Vətənin harayına çatmaq, onu göz bəbəyi kimi qorumaq hər birimizin müqəddəs borcudur. Əminəm ki, indi Azərbaycanın əksər gəncləri bu amalla yaşayır və özlərini, sözün həqiqi mənasında, Vətən daşı hesab edirlər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Baş gizir Behbudov İlqar Behbud oğluna 1999-cü ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məmmədov Ruslan Əvdil oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kərimova Xəyalə Babalı qızına 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əsgər Həsənov Emil Natiq oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1005
Nüsxə 4710